| «Razılaşdırılmışdır» | «Təsdiq edirəm» |
|---|---|
| ___________ rayon (şəhər)<br>İcra Hakimiyyətinin başçısı<br><br>________________________<br>«____»_________200__ -ci il | Azərbaycan Respublikası Dövlət<br>Şəhərsalma və Arxitektura<br>Komitəsinin sədri<br>____________A.A.Ələsgərov<br>«____»_________200__-ci il |

**Azərbaycan Respublikası**
**_______________ rayon (şəhər) İcra Hakimiyyəti başçısı**
**aparatının Memarlıq və tikinti şöbəsi (bölməsi) haqqında nümunəvi**

# ƏSASNAMƏ*

## I. Ümumi müddəalar

1. Azərbaycan Respublikası ___________ rayon (şəhər) İcra Hakimiyyəti başçısı aparatının memarlıq və tikinti şöbəsi (bölməsi) (bundan sonra «şöbə» «bölmə») ________ şəhər (rayon) İcra Hakimiyyəti başçısı aparatının struktur bölməsidir.

2. Şöbə (bölmə) öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitutsiyasını, Azərbaycan Respublikasının Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarını, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin qərarlarını, _______ şəhər (rayon) İcra Hakimiyyəti başçısının əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

3. Şöbə (bölmə) öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, _______ rayon (şəhər) İcra Hakimiyyəti başçısı aparatının və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin müvafiq şöbələri, digər dövlət, yerli özünüidarəetmə orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

4. Şöbə (bölmə) üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

5. Şöbənin (bölmənin) saxlanması xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və mövcud qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

## II. Şöbənin fəaliyyət istiqamətləri

6. Şöbənin (bölmənin) fəaliyyət istiqamətləri aşağıdakılardır:

6.1. müvafiq inzibati ərazidə insanın həyatı və fəaliyyəti üçün ekoloji baxımdan sağlam, təhlükəsiz və yararlı mühitin yaradılmasına, məskunlaşma sistemlərinin sosial, istehsalat, mühəndis-nəqliyyat infrastrukturunun əlverişli formalaşmasına, kompleks və səmərəli inkişafına, tarixi-mədəni irsin, təbii landşaftların qorunub saxlanmasına, şəhər və digər yaşayış məskənlərinin memarlıq görkəminin zənginləşdirilməsinə, təbiətdən və təbii ehtiyatlardan səmərəli istifadə olunmasına yönəldilmiş dövlət siyasətinə uyğun olaraq şəhərsalma fəaliyyətini həyata keçirir;

6.2. şəhər və digər yaşayış məskənlərinin planlaşdırılmasında, tikintisində və abadlaşdırılmasında memarlığın yüksək bədii nailiyyətlərindən istifadə olunmasına nail olur;

6.3. yerli səviyyədə şəhərsalma, memarlıq və tikinti sahələrinin inkişafını təmin edir;

6.4. yerli səviyyədə müəyyən edilmiş qaydada şəhərsalma kadastrının aparılmasını təmin edir;

6.5. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## III. Şöbənin vəzifələri

7. Şöbə (bölmə) bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

7.1. şəhərsalma, memarlıq və tikinti sahələrində öz səlahiyyətləri çərçivəsində yerli səviyyədə normativ tənzimləmənin həyata keçirilməsini təmin etmək;

7.2. dövlət proqramlarının və inkişaf konsepsiyalarının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

7.3. qanunvericiliklə müəyyən edilmiş qaydada yerli səviyyədə şəhərsalma, memarlıq və tikinti sahələrində dövlət nəzarətini həyata keçirmək;

7.4. yaşayış məskənlərinin baş planlarının, müfəssəl planlaşdırma layihələrinin, yaşayış məskənlərinin hüdudları layihələrinin, sənaye qovşaqlarının, sanatoriya-kurort, istirahət və turizm komplekslərinin baş sxemləri və layihələrinin, yaşayış məskənlərinin mühəndis-kommunikasiya xəttlərinin sxem və layihələrinin və onlarda müvafiq dəyişikliklər nəzərdə tutan layihələrin hazırlanmasını təşkil etmək;

7.5. rayon (şəhər) ərazisində milli və tarixi irsin, şəhərsalma, memarlıq abidələrinin, təbii-mədəni landşaftın, digər qoruq ərazilərinin saxlanması, mühafizəsi və zənginləşdirilməsi məqsədilə müvafiq İcra Hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə birlikdə tədbirlər görülməsini təmin etmək;

7.6. rayon (şəhər) ərazisində aparılan abadlıq işlərində, yeni inşa olunan obyektlərdə estetik gözəlliyi, müasirliyi, milli memarlıq üslubunu təmin etmək;

7.7. müvafiq dövlət orqanları və yerli özünüidarəetmə orqanları ilə birlikdə məskunlaşmış ərazilərin mövcud təbii və geoloji şəraitinin yararlı

olmasını nəzərə almaqla, onların inkişaf istiqamətlərini və memarlıq-planlaşdırma strukturlarını müəyyən etmək;

7.8. müvafiq dövlət orqanları ilə birlikdə məskunlaşma ərazilərinin və sistemlərinin təhlükəli təbii proseslərdən və hadisələrdən mühafizəsi üçün tədbirlərin hazırlanmasında iştirak etmək;

7.9. tikilməkdə və istismarda olan bina və qurğularda qəza vəziyyəti yarandığı hallarda müvafiq dövlət orqanları ilə birlikdə onun səbəblərinin araşdırılması və bərpa işləri üçün tədbirlərin hazırlanmasında iştirak etmək;

7.10. təsdiq edilmiş şəhərsalma sənədləri üzrə yeni obyektlərin yerləşdirilməsinə rəy vermək;

7.11. müvafiq qaydada təsdiq olunmuş şəhərsalma sənədləri olmadıqda və ya şəhərsalma sənədləri üzrə yeni obyektlərin yerləşdirilməsi zamanı baş planlarda, müfəssəl planlaşdırma və ərazi-tikinti layihələrində və mövcud ərazilərin memarlıq-planlaşdırma həllərində dəyişiklik edilməsi tələb olunduğu hallarda bu dəyişikliklərə razılıq vermək və qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən rəy alınmasını təşkil etmək;

7.12. şəhərsalma sənədlərinin, yaşayış və ictimai binaların, onların komplekslərinin, kommunal təsərrüfatı bina və qurğuların həmçinin sənaye, kənd təsərrüfatı obyektlərinin tikintisi, genişləndirilməsi və yenidən qurulmasının memarlıq həlləri üzrə layihələrinə baxılması və razılaşdırılmasını təmin etmək;

7.13. unikal binaların memarlıq-planlaşdırma həllərinin qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsində razılaşdırılmasını təşkil etmək;

7.14. təsdiq olunmuş şəhərsalma sənədlərinə və ya şəhərsalma əsaslandırılmasına əsasən obyektlərin tikintisi, yenidən qurulması, genişləndirilməsi üçün torpaq sahələrinin ayrılması və onların layihələndirilməsi üzrə texniki şərtlər və memarlıq planlaşdırma tapşırığı, torpaqlardan istifadə rejimi, onların sərhədləri üzrə qrafik və mətn materiallarından ibarət tikinti pasportunu hazırlamaq, müvafiq qaydada tərtib olunmuş smetalara uyğun olaraq dəyəri ödənilməklə sifarişçilərə təhvil vermək;

7.15. obyektlərin yerləşdirilməsi üçün ayrılmış sahələrdə qırmızı xəttləri və digər tənzimləmə xəttlərini, mühəndis-kommunikasiyaların çəkiliş xəttlərini, reperləri təhvil verərək sahələrin sərhədlərini naturada göstərmək;

7.16. tikintisi başa çatmış obyektlərin istismara qəbulu üzrə komissiyaların işində iştirak etmək;

7.17. öz səlahiyyətləri daxilində əhalinin müvafiq sahədə hüquqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

7.18. yerli səviyyədə dövlət şəhərsalma kadastrını yaratmaq və aparmaq;

7.19. şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;

7.20. şöbənin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən olunmuş qaydada tədbirlər görmək;

7.21. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. Şöbənin hüquqları

8. Şöbə (bölmə) öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

8.1. şəhər(rayon) İcra Hakimiyyəti başçısının müvafiq sahəyə aid əmr və sərəncamlarının layihəsini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

8.2. fəaliyyət istiqamətlərinə uyğun digər rəylər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq və müvafiq təkliflər vermək;

8.3. şəhərsalma sənədləri və tikinti layihələrinin həyata keçirilməsində şəhərsalma fəaliyyətinə dövlət memarlıq-tikinti nəzarətini həyata keçirmək;

8.4. şəhərsalma və tikinti norma və qaydalarının pozulması ilə aparılan, həmçinin özbaşına tikintilərin dayandırılması barədə müvafiq qaydada tapşırıqlar vermək;

8.5. şəhərsalmanın əsasları haqqında qanunvericiliyin pozulması haqqında işlərə baxmaq;

8.6. özbaşına tikintilərin sökülməsi barədə məhkəmə qaydasında iddia qaldırmaq;

8.7. tikinti-quraşdırma işlərinin başlanmasına müvafiq qaydada icazə vermək;

8.8. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

8.9. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. Şöbənin fəaliyyətinin təşkili

9. Şöbənin (bölmənin) strukturu şəhər (rayon) İcra Hakimiyyəti başçısı aparatına daxil olan, dövlət qulluqçu statusuna malik işçilərdən və qanunvericiliyə zidd olmayan mənbələr hesabına maliyyələşdirilən struktur bölmələrdən ibarətdir.

10. Şöbəyə (bölməyə) Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində razılaşdırmaqla rayon İcra Hakimiyyəti başçısı tərəfindən təyin olunan şöbə (bölmə) müdiri – baş memar rəhbərlik edir;

11. Şöbə (bölmə) müdiri – baş memar vəzifəsinə 5 (beş) il yaradıcılıq təcrübəsi olan ali təhsilli memar təyin olunur.

12. Şöbə (bölmə) müdiri – baş memar eyni zamanda rayonun baş memarıdır.

13. Şöbənin (bölmənin)tərkibində aşağıdakı struktur bölmələr yaradıla bilər:

-memarlıq-tikinti nəzarəti müfəttişliyi;

-dövlət şəhərsalma kadastrı xidməti;

-layihə-istehsalat memarlıq-planlaşdırma bürosu;

14. Şöbə (bölmə) yanında yaşayış məskənlərinin baş planları, müfəssəl planlaşdırma layihələri və ərazi-tikinti layihələrini və ayrı-ayrı obyektlərin memarlıq həllərini müzakirə etmək məqsədilə məşvərətçi statuslu Şəhərsalma Şurası yaradılır. Şəhərsalma Şurasına şöbə müdiri – baş memar sədrlik edir. Şuranın tərkibi şöbə müdiri – baş memarın təqdimatı ilə rayon İcra Hakimiyyətinin başçısı tərəfindən təsdiq edilir.

*** Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin 30.12.2008-ci il tarixli, 117 № li əmri ilə təsdiq edilmişdir.**